1_Layout 1 14.09.2022 9:20 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 18 (632)
15 sentyabr 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# ZƏFƏR sərgisi

## Bəşər tarixində ilk dəfə "smart müharibə" aparan Azərbaycan hərbi qüdrətini, müasir arsenalını dünyaya nümayiş etdirdi

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu "ZƏFƏR sərgisi" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**



Sentyabrın 6-8-də Bakıda keçirilən beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində ən müasir silahların nümayişi və yeni müqavilələrin bağlanması üçün əla platformaya çevrilən IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri başa çatdı. Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan bəşər tarixində ilk dəfə "smart müharibə" aparan ölkə kimi hərbi qüdrətini, arsenalını və istehsal etdiyi müasir texnikalarını, silah-sursatlarını bu sərgilərdə bir daha dünyaya nümayiş etdirdi.

### 30-a yaxın ölkədən 208 şirkətin ən müasir texnologiyaları təqdim olundu

Öncə onu deyək ki, "ADEX-2022" Vətən müharibəsində qazanılmış parlaq qələbədən sonra Azərbaycanın təşkil etdiyi ilk beynəlxalq müdafiə sərgisidir. Üç gün davam edən sərgilərdə geniş işgüzar proqram hazırlanmışdı. Bu proqramlar əsasında Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin minalardan təmizlənməsi, pilotsuz sistemlərin inkişaf perspektivləri və tətbiq sahələri üzrə, müasir silah sistemləri, sursatlar və onların təyinatı, zirehli döyüş nəqliyyat vasitələrinin müasir döyüş mühitində rolu və digər aktual mövzular üzrə sessiyalar keçirildi.

Prezident İlham Əliyev sərgilərin açılışı münasibətilə göndərdiyi təbrik məktubunda vurğuladığı kimi, artıq ənənəvi xarakter almış "ADEX" sərgisi dünyanın tanınmış hərbi sənaye müəssisələrini, nüfuzlu xarici şirkət və təşkilatları, rəsmi nümayəndə heyətlərini və mütəxəssisləri eyni məkanda toplayaraq işgüzar əlaqələrin qurulması və yeni müqavilələrin imzalanması üçün geniş imkanlar yaradır. Dövlət başçısı əminliklə bildirib ki, bu sərgilər faydalı təcrübə mübadiləsinin aparılmasına, yeni əməkdaşlıq əlaqələrinin qurulmasına əlverişli imkan yaradacaq və Azərbaycanın müdafiə sənayesinin elmi-texnoloji potensialının artırılmasına öz müsbət töhfəsini verəcək.

Sentyabrın 6-da İlham Əliyev Bakı Ekspo Mərkəzində keçirilən sərgilərdə nümayiş etdirilən müasir hərbi texnikalar, silah, PUA-larla tanış oldu. Dünyanın 30-a yaxın ölkəsindən 208 şirkətin iştirak etdiyi sərgilərdə Azərbaycanı 22 şirkət təmsil edirdi.

Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilən tədbirin təşkilati işlərinin icrası "Caspian Event Organisers" şirkətinə həvalə edilmişdi. Sərgidəki iştirakçılar arasında Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və ilk dəfə olaraq İordaniyanın müdafiə sektorunun aparıcı şirkətləri var idi. Builki sərgidə 8 ölkə milli stendləri ilə iştirak edirdi.

Sərgilər bir daha Azərbaycanın bu istiqamətdə inkişafını göstərdi. Bəlli oldu ki, Azərbaycan Vətən müharibəsindən sonra hərbi sənayenin inkişafı istiqamətində davamlı addımlar atır. Ümumilikdə, hərbi sahədə kadrların hazırlanması, bu sahənin təkmilləşdirilməsi yönündə qonşu ölkələrlə birgə layihələr həyata keçirilir, qoşunların birgə təlimləri baş tutur, yeni hərbi sursatların istehsalı, alınması istiqamətində əməkdaşlıq genişləndirilir.

### Azərbaycanın müdafiə sənayesi müəssisələrində istehsal olunan məmulatların həcmi ildən-ilə artır

Prezident İlham Əliyevin söylədiyi kimi, XXI əsrin müharibəsini aparmış Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsi bu gün inkişaf etmiş ölkələrin hərbi mərkəzlərində diqqətlə öyrənilir. Son dərəcə çətin relyef şəraitində ən müasir döyüş silahlarını tətbiq etməklə Azərbaycan Silahlı Qüvvələri düşmənin möhkəmləndirilmiş müdafiə xətlərini yarmış və sürətlə irəliləyərək cəmi 44 gün ərzində onu təslim olmağa məcbur etmişdir.

Bu savaşda pilotsuz uçuş aparatları isə yeni müharibə formatının bünövrəsini qoydu. Ordumuzun həyata keçirdiyi müasir döyüş taktikası dünya hərb praktikasında yeni nəsil savaşı kimi dəyərləndirildi.

Azərbaycanın tarixi qələbəsi göstərdi ki, hərbi sahədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün müasir ordu quruculuğu, ölkənin hərbi qüdrətinin yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi son dərəcədə əhəmiyyətlidir.

Prezidentin sərgilərin açılış mərasiminə ünvanladığı məktubunda da qeyd edilir ki, Azərbaycan öz Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılmasına və maddi-texniki bazasının gücləndirilməsinə daim xüsusi önəm verir. Ölkəmiz hərbi-texniki sahədə dünyanın qabaqcıl dövlətləri ilə əməkdaşlığını inkişaf etdirməklə yanaşı, milli müdafiə sənayesi sahəsində də imkanlarını genişləndirir. Hazırda Azərbaycan aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın 50-dən çox ölkəsinin aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir, ölkəmizin müdafiə sənayesi müəssisələrində istehsal olunan məmulatların həcmi ildən-ilə artır: "Biz qarşıdan gələn dövrdə də müasir silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin istehsalına xüsusi diqqət yetirməklə Azərbaycan Silahlı Qüvvələrini və ölkəmizin müdafiə qabiliyyətini daha da gücləndirəcəyik".

Qalib komandanın bu fikirləri və sərgilərdə dost, tərəfdaş ölkələrin birlikdə müdafiə sənayesindəki yeniliklərini nümayiş etdirmələri həm də məğlub Ermənistana, regionda sülh istəməyən qüvvələrə açıq mesaj idi. Müdafiə sənayesini gücləndirən, daha müasir texnikalar alan Azərbaycan istənilən formalı savaşa hazırdır. Əgər Ermənistan sülh müqaviləsini imzalamaqdan boyun qaçırıb, təxribatlar törətməyə davam edəcəksə, mütləq "dəmir yumruq" işə düşərək problemi həll etmək məcburiyyətində qalacaq.

# MDB Daxili İşlər Nazirləri Şurasının iclası keçirilib

**Azərbaycan Respublikasının Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının (DİNŞ) növbəti iclasında iştirak etmək üçün Qırğız Respublikasında ikigünlük rəsmi səfərdə olub.**




Sentyabrın 8-də Çolpan-Ata şəhərində keçirilən Daxili İşlər Nazirləri Şurasının iclasında üzv dövlətlərin Daxili işlər nazirliklərinin əməkdaşlığının prioritet istiqamətləri və cinayətkarlıqla mübarizədə dövlətlərarası proqramların icra vəziyyəti barədə ümumi fikir mübadiləsi aparılıb, Şuranın terrorizm, ekstremizm, narkotrafik, mütəşəkkil cinayətkarlıq və insan alveri ilə mübarizədə geniş və əhatəli iş apardığı, qurumun MDB məkanında təcrübə və informasiya mübadiləsi istiqamətində də səmərəli fəaliyyət göstərdiyi vurğulanıb.

İclasda çıxış edən Azərbaycan Respublikasının Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov gündəlikdəki bütün məsələlərin aktuallığını, onların daxili işlər orqanlarının qarşısında duran, günümüzün reallıqları ilə uzlaşan vəzifələrə uyğun olduğunu qeyd edib, müzakirələrin əməkdaşlığın daha da intensivləşməsinə və genişləndirilməsinə yeni impuls verəcəyinə əminliyini bildirib.

V.Eyvazov qeyd edib ki, 2019-2022-ci illər ərzində Birlik üzvü olan ölkələrin Daxili İşlər Nazirliklərinin aidiyyəti qurumları tərəfindən sıx işbirliyində yüzlərlə ağır cinayətin üstü açılıb, çoxsaylı mütəşəkkil transmilli kriminal qruplar zərərsizləşdirilib, təhlükəli cinayətkarlar tutularaq ekstradisiya olunub.

Birlik çərçivəsində tərəfdaşlığın kifayət qədər yüksək səviyyədə olduğunu qeyd edən nazir son 5 il ərzində 4470 cinayətkar qrupun zərərsizləşdirildiyini, qanunsuz dövriyyədən 4 minə yaxın odlu silahın və 9 ton narkotik vasitənin müsadirə edilməsinin Azərbaycan hüquq mühafizə orqanlarının bu istiqamətdə barışmaz mövqe sərgilədiyinin əyani sübutu olduğunu bildirib.

General-polkovnik V.Eyvazov son illər ölkəmizdə cinayətkarlıqla aparılan qətiyyətli mübarizənin müsbət nəticələri, ümumilikdə, cinayətlərin, o cümlədən, ağır və xüsusilə ağır cinayətlərin açılması, azalma tendensiyası, dövlətlərarası axtarışa verilən təqsirləndirilən şəxslərin tutulması, əlverişli kriminogen durum, ictimai asayişin qorunması sahəsində həyata keçirilən tədbirlər barədə danışıb, transmilli mütəşəkkil cinayətkarlığın yeni təhdid və çağırışlarına birgə səylərlə cavab verilməsinin zəruriliyini diqqətə çatdırıb.

Dostluq və konstruktiv əməkdaşlıq şəraitində keçən toplantıda planlaşdırılan bütün məsələlər üzrə müvafiq qərarlar qəbul edilib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 13.09.2022 17:00 Page 1



## İŞĞALDAN AZAD OLUNMUŞ LAÇINDA DAXİLİ QOŞUNLARIN HƏRBİ QULLUQÇULARI POLİSLƏ BİRGƏ FƏALİYYƏT GÖSTƏRİR

44 günlük Vətən müharibəsi nəticəsində işğalına son qoyulan ərazilərimizdə aparılan bərpa-yenidənqurma işləri qədər təhlükəsizliyin təmin olunması mühüm əhəmiyyətli vəzifədir.

Məlum olduğu kimi, avqustun 26-da Azərbaycan Ordusu Laçın şəhərinə, Zabux və Sus kəndlərinə yerləşərək bu ərazilərə nəzarəti ələ keçirib. Laçın rayonunun inzibati ərazisində Rayon Polis Şöbəsinin əməkdaşlarının xidməti fəaliyyəti bərpa edilib.







Həmçinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları ilə Laçın Rayon Polis Şöbəsinin əməkdaşlarının birgə xidməti başlayıb. Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən ərazidə stasionar postlar qurulub, zəruri avadanlıqlarla təchiz edilib və gündəlik olaraq xidmət aparılır. Bu ərazilərdə terror, təxribat, digər qanunazidd fəaliyyətin qarşısının alınması, giriş-çıxışın xüsusi rejiminin tətbiqi üzrə xidməti tapşırıqlar uğurla yerinə yetirilir. Bundan əlavə, gündəlik olaraq qeyd olunan istiqamətlərdə qarşıya qoyulmuş tapşırıqların icrası məqsədilə piyada marşrutunda post-patrul xidməti təşkil olunub.



Qeyd edək ki, şəxsi heyətin işğaldan azad edilmiş ərazilərdə xidməti-döyüş fəaliyyəti çoxşaxəli olmaqla, hərbi qulluqçulardan yüksək peşəkarlıq, ayıq-sayıqlıq, qətiyyət və əzmkarlıq tələb edir. Hərbi qulluqçularımız qarşıya qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirir, komandanlığın etimadını ləyaqətlə doğruldurlar.

**kapitan Xədicə Hacızadə**

## TƏLİMLƏRİN KEYFİYYƏTLİ TƏŞKİLİ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞININ ƏSASIDIR

Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir. Xidməti tapşırığa əsasən, 67987 saylı hərbi hissəyə ezamiyyətim zamanı ilk olaraq mayor Rüfət Muradovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsinin fəaliyyəti ilə tanış oldum. Hərbi hissə komandiri tərəfindən xidməti-döyüş fəaliyyəti müsbət qiymətləndirilən dəstə haqqında danışarkən mayor R.Muradov bildirdi ki, dəstənin döyüş hazırlığının yüksəldilməsi üçün şəxsi heyətin döyüş təliminin metodiki cəhətdən düzgün keçirilməsi, mənəvi-psixoloji durumunun yüksək olması, hərtərəfli təminatın mövcudluğu qarşıya qoyulan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsinə zəmin yaradır.



O, dəstədə yüksək nizam-intizamın əldə olunması üçün şəxsi heyətə qarşı tələbkar olmağın, gündəlik xidməti-döyüş fəaliyyətinin nəzarətdə saxlanılmasının vacibliyini vurğuladı. Xidmətini Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil etdiyini deyərək, keçirilən praktiki və nəzəri məşğələlərin mövzularının keyfiyyətli və tam fərdi qaydada mənimsənilməsinin müsbət nailiyyətlərin, qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini sözlərinə əlavə etdi.



Şəxsi heyətin nəzəri biliyinin və döyüş hazırlığının artırılması məqsədilə, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi, atəş, fiziki, taktiki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, o cümlədən, sıra və ixtisas hazırlığından məşğələlər təşkil olunur. Məşğələlər zamanı qrup və yarımqrup komandirlərinin metodiki cəhətdən biliklərinin artırılmasına, hərbçilər tərəfindən mövzuların dərindən mənimsənilməsinə xüsusi diqqət yetirilir.

Hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlığına, təlim-tərbiyəsinə, hərbi intizamına, qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə, xüsusi vasitə və silahların, texnikanın vəziyyətinə nəzarət etdiyini diqqətə çatdıran komandir xidmətin düzgün təşkilinin kompleks iş olduğunu söylədi, bu sahədə ona yaxından köməklik göstərən bölmə komandirləri və onların müavinlərinin fəaliyyətini qeyd etməyi unutmadı.

Bölmədə keçirilən tərbiyə işi saatlarının əhəmiyyətindən söz açan dəstə komandiri şəxsi heyətlə yüksək nizam-intizama nail olunması və onun qorunub saxlanılması mövzusunda söhbətlərin aparıldığını bildirdi. O, bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Samir Məmmədovun fəaliyyətini xüsusilə qeyd etdi.

Mayor R.Muradov keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən, həmçinin, funksional vəzifələrinin öhdəsindən layiqincə gələrək yoldaşlarına nümunə olan hərbi qulluqçulardan gizir Əli Əlizadə, baş çavuş Rahib Səlimov, kiçik çavuş Elvin Eyyubov, baş əsgər Elşən Platov və əsgər Nürəddin Məcidovun adlarını çəkdi. Xüsusi vasitələrin tətbiqi dəstəsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə və qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən peşəkarlıq göstərəcəyinə əminliyini ifadə etdi.

**kapitan Şahin Cəfərzadə**

## XÜSUSİ TƏYİNATLILAR QARŞIYA QOYULMUŞ TAPŞIRIQLARIN ÖHDƏSİNDƏN LAYİQİNCƏ GƏLİRLƏR

Regionda ictimai təhlükəsizliyin qorunub saxlanılması, hüquqazidd əməllərin qarşısının alınması, silahlı cinayətkarların axtarılıb tutulması və zərərsizləşdirilməsi, eləcə də istənilən hava şəraitində qarşıya qoyulmuş tapşırıqları vaxtında yerinə yetirmək xüsusi təyinatlıların əsas vəzifələri hesab olunur. Bu hər bir xüsusi təyinatlıdan yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam tələb edir. 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsi sadalanan xüsusiyyətlərə malikdir. 2022-ci ilin yekun yoxlamasının nəticələrinə əsasən hərbi hissənin bölmələri arasında dəstənin birinci yerə layiq görülməsi bu fikri söyləməyə əsas verir.





“Bəbir” şərti adı verilmiş dəstə hərbi hissənin yüksək döyüş hazırlığının qorunub saxlanılmasında mühüm rol oynayır. Dəstə komandiri polkovnik-leytenant Zaur Rəhimov xüsusi təyinatlı dəstənin qarşısına qoyulmuş tapşırıqlar barədə danışarkən söylədi ki, hava şəraitindən asılı olmayaraq, şəxsi heyətlə təlim-məşq prosesləri davamlı olaraq keçirilir. Döyüş təlimi Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Xüsusən çətin iqlim şəraitində təlimlərin keçirilməsi diqqətdə saxlanılır. Hərbi qulluqçuların dünyagörüşünün formalaşması, onlara müsbət mənəvi-psixoloji keyfiyyətlərin aşılanması yönündə addımlar atılır. Bunun nəticəsidir ki, xüsusi təyinatlılar qarşıya qoyulmuş ən çətin tapşırıqların öhdəsindən layiqincə gəlir, istənilən sınaqdan üzüağ çıxmağa müvəffəq olurlar.



Dəstə komandiri onu da vurğuladı ki, məşğələlər şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsinə, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsinə, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsinə, nizam-intizamın möhkəmləndirilməsinə və sayıqlığın artırılmasına, eləcə də fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsinə istiqamətlənir. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin və şücaətin, qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi nəzərdən qaçmayan məsələlərdir.

Müxtəlif ərazi relyefində və hava şəraitində keçirilən məşğələlərin əsas mahiyyəti verilmiş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsidir. Dəstə komandiri qeyd etdi ki, praktiki məşğələlər zamanı hərbi qulluqçular tərəfindən təhlükəsizlik qaydalarına da ciddi riayət olunur.

Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının artırılması, qarşıya çıxan tapşırıqların hər an yerinə yetirilməsinə hazır olmalarına xüsusi önəm verilir.

Polkovnik-leytenant Z.Rəhimov şəxsi heyətin qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının peşəkarcasına və müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bundan sonra da yorulmadan, əzmlə çalışacaqlarını, onlara göstərilən etimadı doğruldacaqlarını söylədi.

**kapitan Xədicə Hacızadə**

## KOMENDANT BÖLÜYÜ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI İLƏ FƏRQLƏNİR

Hərbi hissənin döyüş xidməti dedikdə, ilk növbədə, döyüş bayrağının, anbarların, hərbi hissənin obyektlərinin mühafizə və müdafiəsi ağlımıza gəlir. Bu baxımdan 25032 saylı hərbi hissənin komendant bölüyü hissənin etibarlı şəkildə qorunmasını həyata keçirir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölüyün şəxsi heyəti daim ayıq-sayıqlığı və əzmkarlığı ilə fərqlənir.









Bölük komandiri kapitan Ramin Abdullayev söhbət zamanı qarşıya qoyulan mühüm tapşırıqların əhəmiyyətini, döyüş xidmətinə cəlb olunan hərbi qulluqçuların digərlərindən fərqləndiyini diqqətə çatdırdı. Bildirdi ki, məsuliyyətli, eyni zamanda, mühüm vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, mənəvi-psixoloji durumunun qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Bu gün xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin olduğunu deyən kapitan R.Abdullayev hərbi qulluqçularla keçirilən məşğələlərin əhəmiyyətini önə çəkdi. Bildirdi ki, məşğələlər şəxsi heyətin bilik və bacarıqlarının, hərbi savadlarının artırılmasına təkan verir. O, yüksək fiziki göstəriciyə, zəruri hərbi savada malik, eləcə də müsbət mənəvi cəhətləri olan əsgərin əzmkar döyüşçü olduğunu vurğuladı.

Bölüyün hərbi qulluqçularının asudə vaxtlarının səmərəli təşkil olunmasını bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Gündüz Məmmədov hər zaman diqqətdə saxlayır. Burada hərbi qulluqçuların istirahəti üçün lazımi şərait yaradılıb. Belə ki, asudə vaxtlarda şəxsi heyət mütaliə edir, stolüstü oyunlar oynayır, qulaqcıqlar vasitəsilə radioya qulaq asır. Baş leytenant G.Məmmədov hərbi qulluqçuların fiziki və atəş hazırlığının yüksək olması ilə yanaşı, həm də hər birinin sağlam səhhətə, düzgün düşüncəyə malik olmasının vacibliyini vurğuladı. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçuların seçilməsi nəzarətdə saxlanılır.

Bölük komandiri hər zaman çalışqanlığı, intizamı və nümunəvi xidmətilə seçilən hərbi qulluqçulardan leytenant Murad Söhbətli, çavuş Elmir Həsənov, kiçik çavuşlar Vüsal Əliyev, Röyal Rzayev, baş əsgərlər İbrahim Qocayev və Kənan Fərzullayevin adlarını çəkərək, onların yoldaşlarına nümunə olduqlarını qeyd etdi.

**baş leytenant Nigar Ağayeva**

3_Layout 1 13.09.2022 17:12 Page 1



44 günlük Vətən müharibəsi zamanı "Dəmir yumruq"la düşmənin başını əzərək, öz qanları ilə şanlı Zəfər tariximizi yazan şəhid qəhrəmanlarımızın şərəfli həyat və döyüş yolunu öyrənmək hər birimizin vətənpərvərlik borcudur.

Vətən uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlmiş Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının cəsur xüsusi təyinatlılarından biri də çavuş Əbdürəhmanlı Sabir Faiq oğludur.

*Şəhidlərimiz*

# "GEDİRİK TARİX YAZMAĞA!"



Çavuş Sabir Əbdürəhmanlı 1998-ci il martın 9-da Bakı şəhərində anadan olub. Sabir bir yaş yarım olanda ailəsi Sumqayıt şəhərinə köçüb. Orta təhsilini bu şəhərdə müvəqqəti yerləşən şəhid Bəhmən Mehdiyev adına Qubadlı şəhər 2 saylı tam orta məktəbdə alıb. Məhz bu səbəbdən də Sabir əslən Ağdam rayonunun Mahrızlı kəndindən olsa da, bəzi mənbələrdə yanlış olaraq Qubadlı rayonundan olduğu yazılıb.

Şəhid anası Mehparə Çubanovanın qeyd etdiyi kimi Sabir onun böyüdüb tərbiyə etdiyi və gözünün ağı-qarası yeganə övladı, ümid çırağı olub: "Sabir məni həyata bağlayan yeganə arxa-dayağım, vətənpərvər, igid balam idi. Hələ kiçik yaşlarından hərbi xidmətə böyük maraq göstərib.

Yaxşı yadımdadır, Sumqayıt şəhərində yeni aldığımız mənzilə köçürdük. Əşyalarımızı daşıyıb, yerbəyer edirdik. O zaman Sabir çox kiçik idi, yaxşı danışa da bilmirdi. Qonşular ondan böyüyəndə nə olacağını soruşmuşdular. Əlindəki xəmiryayanı silahı kimi tutan Sabir: "Azərbaycan əsgəri!" – deyə cavab vermişdi. Onun bu cavabı qonşuların çox xoşuna gəlmişdi. Yeni qonşularımızla ilk münasibətlərimiz də elə Sabirin vasitəsilə yaranmışdı.

Çox zirək uşaq olub. İdmanı çox sevirdi. Beşinci sinifdən idmanın karate növü ilə məşğul olub, keçirilən yarışlarda göstərdiyi yüksək nəticələrinə görə müxtəlif dərəcəli diplom və medallarla təltif edilib. "Qəhvəyi kəmər" ustası idi. Ümumiyyətlə, hər şeyin yerini bilən, deyib-gülən, çətin anlarımda mənə ürək-dirək verən bir övlad olub. Biz ana-bala yox, sanki dost, sirdaş olmuşuq. Cəbhə bölgəsinə getməzdən öncə, sentyabrın 25-də onunla cəmi bir saatlıq görüşüb, söhbət edə bildik. Elə bilirdim yenə də təlimə gedirlər. Bu sonuncu görüşümüzdə Sabir mənə: "Sultanım (o mənə belə müracət edirdi), bir az da döz, mən səni zirvələrə qaldıracam. Mən səni aparıb bütün dünyanı gəzdirəcəm" - demişdi.

Düzdür, bir ana kimi övlad acısı qəlbimi göynətsə də, bircə təsəllim odur ki, torpaqlarımız azad edildi, şəhid və qazilərimizin intiqamı erməni işğalçılarından alındı və qanları yerdə qalmadı".

Mehparə xanım onu da qeyd etdi ki, Sabirin əmisi Famil Əbdürəhmanov Birinci Qarabağ müharibəsi zamanı şəhid olub. Həmçinin, şəhidlərimizin intiqamının mənfur düşməndən almasının və üçrəngli bayrağımızın işğaldan azad edilmiş torpaqlarımızda qürurla dalğalandırılmasının Sabirin ən böyük arzusu olduğunu bildirdi.

Sabir müddətli həqiqi hərbi xidmətini 2016-cı ilin aprel ayından 2017-ci ilin oktyabr ayınadək Daxili Qoşunların 25031 və 17071 saylı hərbi hissələrində keçib. Bu dövrdə qoşunların 12318 saylı hərbi hissəsində kiçik komandirlər kursunu bitirərək, "çavuş" hərbi rütbəsinədək yüksəlib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların 17072 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilərək, atıcı vəzifəsində Vətənə olan şərəfli borcunu yerinə yetirməyə davam edib. 2017-ci ilin noyabr ayından hərbi hissənin "Pələng" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun 60 mm minaatan yarımqrupunda heyət nəfəri, 2018-ci ilin may ayından etibarən isə xüsusi həmlə qrupunda heyət nəfəri kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirib. Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidməti ilə böyük rəislərin etimadını doğruldub, hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

17072 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri olmuş, Vətən müharibəsi iştirakçısı polkovnik-leytenant Zaur Rəhimov (hazırda 16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri) vaxtilə tabeliyində xidmət etmiş Sabirin vətənpərvərliyindən və döyüşlərdə göstərdiyi qəhrəmanlıqlarından qürur hissi keçirdiyini dedi: "Çavuş Sabir Əbdürəhmanlı dəstəmizin atəş və fiziki hazırlığı yüksək, nizam-intizamlı, nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçularından biri olub. Səmimiyyəti, xoş rəftarı, dostluqda və yoldaşlıqda sədaqətliyi, eləcə də əsl xüsusi təyinatlıya xas olan müsbət xarakterik xüsusiyyətləri ilə silahdaşları arasında böyük hörmət qazanmışdı. Hər zaman arzusunda olduğu Vətən müharibəsinə də böyük ruh yüksəkliyi ilə qatılmışdı. Doğma torpağına, el-obasına bağlı əsl vətənpərvər hərbi qulluqçu olduğunu elə döyüş meydanında - düşmənin başını əzib, onu diz çökdürməklə bir daha sübut etmiş oldu".

Bəli, Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlarda fəal iştirak edən çavuş S.Əbdürəhmanlının Murovdağdan Cəbrayıladək keçən döyüş yolu qısa olsa da, bir sıra strateji əhəmiyyətli yüksəkliklərin və yaşayış məntəqələrinin azad olunmasında rəşadət göstərib.

16075 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda baş atıcı-pulemyotçu, Vətən müharibəsi iştirakçısı baş çavuş Ələddin Hüseynlinin sözlərinə görə, Sabir onun ən yaxın dostu olub. 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində birgə xidmət etdikləri dövrdə subay hərbi qulluqçular üçün inşa edilmiş yataqxanada otaq yoldaşı olublar. 44 günlük Vətən müharibəsi zamanı isə ayrı-ayrı qrupların tərkibində vuruşublar. Ələddin müharibə başlayarkən dostuyla bağlı son xatirində qalan Sabirin böyük sevinclə ucadan söylədiyi "Biz gedirik tarix yazmağa!" sözlərini isə hər zaman qürur hissi ilə xatırlayacağını bildirdi.

17072 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunda radiotelefonçu-istehkamçı, Vətən müharibəsi iştirakçısı çavuş Elçin Əhmədağalı məlumat verdi ki, müharibənin ilk günündən Sabirlə birgə döyüş əməliyyatlarında iştirak edib. Sabirin ilk döyüşü Murovdağ ərazisində "Canavar sağ" adlanan yüksəklikdəki mövqenin alınması uğrunda olub. Silahdaşları ilə birgə qarşıya qoyulan döyüş tapşırığını uğurla yerinə yetirib.

Sentyabrın 30-da günortadan sonra "Canavar sağ"dan Çiçəklidağ yüksəkliyinə doğru irəliləyərkən düşmənin atdığı minaatan mərmisinin yanlarında partlaması nəticəsində döyüşçü yoldaşları çavuş Həsən Abdullayev aldığı ağır qəlpə yarasından yerindəcə şəhid olub, Sabir isə partlayış travması alıb.

Çavuş E.Əhmədağalı qeyd etdi ki, aldığı xəsarət səbəbindən çavuş S.Əbdürəhmanlı döyüş meydanından təxliyyə olunub və Göygöl Rayon Mərkəzi Xəstəxanasına



gətirilib: "Sabir burada üç gün qaldıqdan sonra müalicəsi hələ tam başa çatmamış səhhətinin normal olduğunu və döyüş meydanında düşmənə qarşı mübarizəni davam etdirmək istədiyini bildirib. Beləliklə, oktyabrın 3-də Füzuli rayonu ərazisində yenidən qrupumuzun tərkibinə qatılan Sabir oktyabrın 4-dən etibarən bizimlə birgə Cəbrayıl istiqamətindəki döyüşlərdə fəal iştirak edib. Bu döyüşlər zamanı qrupumuzun şəxsi heyəti Müdafiə Nazirliyinin xüsusi təyinatlıları ilə birgə Cəbrayıl şəhərinin, eləcə də rayonun bir sıra yaşayış məntəqələrinin və mühüm əhəmiyyətli yüksəkliklərin azad edilməsində fərqlənib.

Oktyabrın 6-da növbəti tapşırığımız Cəbrayıl rayonunun Daş Veysəlli kəndi ətrafındakı yüksəkliklərdə yerləşən düşmən postlarının məhv edilməsi oldu. Həmin gün günorta saatlarında ermənilər beş tank və iki yüzədək canlı qüvvə ilə üzərimizə hücuma keçdilər. Şiddətli döyüş bir-neçə saat davam etdi. Cəsur döyüşçülərimizin qəhrəmanlığı sayəsində ermənilərin yetmişədək canlı qüvvəsi və üç tankı məhv edildi. Bundan əlavə, açıq döyüşdən qorxub qaçan düşmənin iki tankı və xeyli sayda silah-sursatı qənimət olaraq ələ keçirildi. Sabir bu döyüşdə xüsusilə fərqlənmişdi. Aslantək döyüş meydanına atılan igid silahdaşımız elə mənim gözlərim önündə öz sərrast atəşi ilə bir həmlədə üç erməni yaraqlısının leşini yerə sərdi. Həmin gün kəndin ətrafındakı bir neçə erməni postu bölmələrimiz tərəfindən azad edilsə də, qarşıdakı bəzi yüksəkliklərdə düşmənin möhkəmləndirilmiş postları hələ də qalırdı.

Oktyabrın 8-i səhər tezdən kəndin yaxınlığında yerləşən düşmənin digər postuna hücum etdik. Postda müdafiə olunan erməni əsgərlərindən on ikisi məhv edildi, digərləri isə qorxularından silahlarını da yerə atıb, qaçıb canlarını qurtara bildilər. Lakin bu döyüş Sabirin son döyüşü oldu. Baş nahiyəsindən güllə yarası alan cəsur silahdaşımız gözlərini yumaraq, əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəldi".

Çavuş S.Əbdürəhmanlı 2020-ci il oktyabrın 9-da Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

Beyləqan Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilmiş 10 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə hərbi qulluqçumuzun 2020-ci il oktyabrın 8-də Füzulidə hərbi əməliyyatlar nəticəsində güllə yarasından həlak olduğu yazılıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 24, 29 dekabr 2020-ci il tarixli və 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları, həmçinin, Azərbaycan Respublikası müdafiə nazirinin 3 noyabr 2020-ci il tarixli əmri ilə çavuş Əbdürəhmanlı Sabir Faiq oğlu (ölümündən sonra) "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilib.

Məlumat üçün bildirək ki, Aygün Hacıyevanın müəllifi olduğu və 2021-ci ildə nəşr olunan "Seçilmişlər", 2022-ci ildə "Xatirə kitabı" redaksiyası tərəfindən hazırlanan "44 gün - Tarixi zəfər. I cild (A-Ə hərfləri üzrə)", 2022-ci ildə "TEAS Press" Nəşriyyat evi tərəfindən çap olunan "Memorial. Vətən müharibəsi şəhidləri. 957 qəhrəmanın bioqrafiyası. I cild (A-G hərfləri üzrə)" və 2022-ci ildə "Aran" Uşaqların Sağlam Gələcəyi İctimai Birliyi tərəfindən nəşr olunan "Qələbə şəhidləri (IV cild)" adlı kitablarda cəsur silahdaşımızın gənc nəslə nümunə olan həyat və döyüş yolu barədə məlumatlar dərc olunub.

Doğma Vətənimizi öz canından əziz tutan və onun yolunda şəhidlik zirvəsinə yüksəlməklə tariximizin qəhrəmanlıq səhifəsini yazan Sabir kimi igid oğullarımızın xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

# ŞƏHİD AİLƏLƏRİNƏ DİQQƏT MƏNƏVİ BORCUMUZDUR

8 noyabr 2020-ci il tarixi Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə yazıldı. Məhz bu gün uzun illər torpaqları işğal altında olmuş və öz doğma ocaqlarından qaçqın və məcburi köçkün kimi didərgin salınmış həmvətənlərimiz üçün əsl zəfər bayramı oldu. Mənfur qonşularımız olan ermənilərin Azərbaycan torpaqlarına ərazi iddiaları səbəbindən illər öncə yurd yerlərimizin vəhşicəsinə yağmalanması və torpaqlarımızın işğal altında saxlanılması artıq sona çatdı. Fəxrlə deyə bilərik ki, sentyabrın 27-dən noyabrın 9-na kimi davam edən 44 günlük müharibə dövründə işğalçı Ermənistan Müzəffər Azərbaycan Ordusunun qüdrətinin, gücünün bir daha şahidi oldu. Döyüş meydanında düşmənə həqiqi mənada gözdağı verən igid oğullarımız xalqımızın başına gətirilmiş bəlaları, soyqırımları unutmadıqlarını fədakarcasına sübut etdilər. Adı qəhrəmanlıq tariximizə əlavə olunan igid hərbçilərimizin arasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları da var.

Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçulara və onların ailə üzvlərinə dərin rəğbət və ehtiram nümayiş etdirilir. Onların həyatı və qəhrəmanlıq nümunələri ilə zəngin olan döyüş yolu gənclərə örnək göstərilir.

Ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin də şəhid ailələrinə göstərdiyi diqqət və qayğı göz önündədir. Şəhid ailələrinin sosial-məişət problemlərinin aradan qaldırılması, ehtiyaclarının qarşılanması istiqamətində respublikamızda həyata keçirilən tədbirlər təqdirəlayiqdir.

Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər hər zaman diqqət mərkəzində saxlanılır.



Daxili Qoşunların 25032 saylı hərbi hissəsində xidməti ezamiyyətdə olarkən hərbi hissə komandanlığının və bir neçə hərbi qulluqçunun Daxili Qoşunların şəhid xüsusi təyinatlısı baş əsgər Fərəcov Kamran İlqar oğlunun Şirvan şəhərində yaşayan ailəsinə baş çəkməsi də göstərilən qayğının təzahürüdür.

Şəhidin atası İlqar Fərəcov oğlu Kamran barədə fəxarətlə, qürurla danışdı. Bildirdi ki, o, 1996-cı il fevralın 14-də Şirvan şəhərində doğulub, ailənin üçüncü övladı, həm də üç bacının bir qardaşı olub. Zahirən sakit görünməyə çalışan ata, əslində, çox kövrəlmiş, gözləri dolmuşdu. Sözünü axıra çatdıra bilmədi, "oğlumu sonuncu dəfə gördüyüm gün heç yadımdan çıxmır, qoxusu hələ də burnumdadı" deyib qəhərləndi.

Daha sonra qeyd etdi ki, Kamran 2013-cü ildə Şirvan şəhərindəki Tahir Bağırov adına 11 saylı tam orta məktəbi bitirib. Orta təhsilini tamamladıqdan sonra ailəsinə təsərrüfat işlərində köməklik göstərib. 2014-cü ilin aprel ayından 2015-ci ilin oktyabr ayınadək müddətli həqiqi hərbi xidmətini Xüsusi Dövlət Mühafizə Xidmətində keçib. 2016-cı ildən Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 2018-ci il avqustun 19-da Fidan Fərəcova ilə ailə qurub. Övladı yoxdur.

Şəhidin atası İlqar kişi söylədi ki, oğlu xasiyyətcə təmkinli, böyük-kiçik yeri bilən və dost-tanış arasında hörmət qazanan gənc olub. İnanclı insan idi, atasına bütün işlərdə kömək edərdi. İstəməzdi ki, atası ağır işləri təkbaşına görsün: "Oğlumla həmişə fəxr etmişəm. Hələ orta məktəb illərindən tərbiyəsi, rəftarı ilə qonum-qonşunun hörmətini qazanmışdı. Çox sakit uşaq olub. Həmişə hərbçi olmaq həvəsi ilə yaşayıb. Biz ona tərbiyə vermədik, anası ilə mənim bir-birimizə olan rəftarımız onun üçün tərbiyə idi".

Kamran Vətən müharibəsi başlayanda 16073 saylı hərbi hissənin "Bəbir" şərti adını daşıyan, Vətən Müharibəsi Qəhrəmanı mayor Şıxamir Qaflanovun komandiri olduğu xüsusi təyinatlı dəstənin heyət nəfəri kimi döyüşlərə qatılıb. Ailə üzvləri onun ön cəbhədə döyüşdüyündən məlumatsız olublar. Müharibə günlərində yalnız iki dəfə ailəsi ilə əlaqə saxlayıb, ata-anasına heç nə bildirməyib.

Şəhidin döyüşçü yoldaşları, eləcə də vaxtilə xidmət etdiyi 16073 saylı hərbi hissənin hərbi qulluqçuları, həmçinin, 25032 saylı hərbi hissənin komandanlığı tez-tez ailəyə baş çəkirlər. İlqar kişi deyir ki, Kamranın döyüş yolu barədə məlumatları da onlardan alıb. Döyüşçü yoldaşları ailəyə məlumat veriblər ki, o, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Xocavənd rayonları uğrunda aparılan döyüş əməliyyatlarında fəal iştirak edib, düşmənə qarşı qətiyyətlə vuruşub. Kamranın son döyüşü oktyabrın 24-də Xocalı rayonunun Çanaqçı kəndi istiqamətində olub. Düşmənin əks-hücumunun qarşısını alarkən güllə yarası alan Kamran şəhadətə yüksəlib. Oktyabrın 29-da Şirvan şəhər Şəhidlər xiyabanında dəfn olunub.




Azərbaycan Respublikası Prezidentinin 15 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş əsgər Kamran Fərəcov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Reyhan ana oğlu haqda xatirələrini danışarkən göz yaşlarını saxlaya bilmədi. Qəhər onu boğsa da, oğlunun necə ağıllı, mərd biri olduğunu söylədi: "Bizim Kamranla bağlı çox arzularımız vardı. Hamısı yarımçıq qaldı. Mənim balam əsl hərbçi kimi yetişmişdi. Evdə olanda da tez-tez idmanla məşğul olardı. Bir dəfə olsun, hərbi xidmətdən söz açmaz, biz də nəsə soruşanda acığı tutardı. Müharibədə olanda neçə dəfə telefon əlaqəsi yaratdıq, heç birində döyüşdə olduğunu bizə bildirmədi. Kaş ki, özündən sonra bir yadigarı qalardı".

Şirvan şəhərində yaşadığı evin qarşısında Daxili İşlər Nazirliyi tərəfindən şəhidin xatirəsinə abidə-bulaq kompleksi yaradılıb. Evdə xatirə guşəsi düzəldilib.

Ümumiyyətlə, müharibədən ötən iki ilə yaxın müddət ərzində istər Daxili İşlər Nazirliyinin rəhbərliyi, istərsə də Daxili Qoşunların komandanlığı tərəfindən onlara göstərilən xüsusi diqqət və qayğıdan razı qaldığını söyləyən Fərəcovlar ailəsi buna görə dərin minnətdarlığını ifadə etdi.

**baş leytenant Nigar Ağayeva**

# TƏMİNAT BÖLÜYÜ XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİ İLƏ ÖNDƏDİR

Hərbi hissələrimizə xidməti ezamiyyətlərimiz zamanı çalışırıq ki, nümunəviliyi, xidməti-döyüş fəaliyyəti ilə fərqlənən bölmələr, hərbi qulluqçular haqqında lazımı materiallar toplayıb, qəzetimizin səhifələrində oxucularımıza təqdim edək. 25032 saylı hərbi hissəyə ezam olunarkən hissənin tarixi, xidməti və döyüş yoluna nəzər salaraq, cari ilin 1-ci yarımilinin nəticələrinə, əldə etdikləri nailiyyətlərə görə hərbi hissə komandirinin əmri ilə mükafatlandırılan bölüklərin siyahısına nəzər saldıq. Qeyd edək ki, bu siyahıda ilk üçlükdə qərarlaşan bölüklərdən biri təminat bölüyüdür.





Təminat bölüyünün fəaliyyəti və şəxsi heyəti barədə məlumat almaq üçün bölük komandiri baş leytenant Əbil Mustafayevlə həmsöhbət olduq. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan zabitimiz döyüş hazırlığının yüksəldilməsi, hərbi qulluqçuların mənəvi-psixoloji durumunun qənaətbəxş olması üçün hər zaman olduğu kimi bu il də əzmlə çalışdığını nəzərimizə çatdırdı. Əlbəttə ki, əldə olunan nailiyyətdə təkcə onun deyil, həm də tabeliyində olan şəxsi heyətin payı olduğunu dilə gətirən komandir "hər bir uğurlu işin arxasında peşəkar bir komandanın zəhməti var" deyərək, fikrini əsaslandırdı.

Tərtib olunmuş məşğələ cədvəlinə əsasən hərbi qulluqçularla mütəmadi olaraq məşğələlər keçirilir. Bu məşğələlərdən ictimai-siyasi hazırlıq, atəş hazırlığı, fiziki hazırlıq, daxili qoşunların taktiki hazırlığı, hərbi topoqrafiya və ixtisas hazırlığı tədris olunur.

Məşğələlərin əhəmiyyətindən söz açan bölük komandiri, ictimai-siyasi hazırlıq məşğələsində mövzudan asılı olmayaraq hərbi qulluqçulara Daxili Qoşunların keçdiyi şərəfli xidmət və döyüş yolu, ən əsası Vətən müharibəsi zamanı hərbçilərimizin göstərdiyi qəhrəmanlıq nümunələri barədə məlumat verildiyini vurğuladı.

Şəxsi heyətin bilik və bacarığının artırılması, bölükdə yoldaşlıq münasibətlərinin qorunub saxlanılmasında tədris prosesinin təminatı taqımının komandiri leytenant Xəyal Məmmədzadə əlindən gələni əsirgəmir. Onu bilikli və nümunəvi zabit kimi qiymətləndirən baş leytenant Ə.Mustafayev hər bir məsələdə yaxın köməkçisi olduğunu dedi.

Verilən tapşırıqların icrasında fərqlənən intizamlı hərbi qulluqçulardan leytenant Yusif Əlizadə, gizir Cavid İsayev, kiçik gizir Tural Abasov və baş çavuş Bəyalı Mikayılovun adlarını çəkən komandir onların hər birinə fədakar xidmətlərində yeni-yeni nailiyyətlər arzuladı.

**baş leytenant Nigar Ağayeva**

*NÜMUNƏVİ XİDMƏT*

# TƏRBİYƏÇİ ZABİT OLMAQ BÖYÜK MƏSULİYYƏTDİR



Daxili Qoşunların sıralarında nümunəvi xidməti və nizam-intizamı ilə fərqlənən hərbi qulluqçularımız çoxdur. Belə silahdaşlarımızdan biri də qoşunların 16076 saylı hərbi hissəsində xidmət edən kapitan Əli Əliyevdir.

O, 1991-ci il sentyabrın 29-da Zəngilan rayonunda doğulub. 2009-cu ildə Bakı şəhəri, Xətai rayonunda yerləşən 28 saylı orta məktəbi bitirib. 2009-2011-ci illərdə Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin patrul bölüyündə müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmətə böyük həvəsi olduğundan 2011-ci ildən həmin hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsində baş atıcı vəzifəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 2012-2014-cü illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi) təhsilini davam etdirib və "leytenant" hərbi rütbəsi alıb. 2021-ci ilin iyun ayınadək 17074 saylı hərbi hissədə müxtəlif vəzifələrdə xidmət edib. Həmin tarixdən etibarən 16076 saylı hərbi hissədə tərbiyə işləri üzrə bölmə rəisi-təlimatçı vəzifəsində xidmətini davam etdirir.

Bölmə rəisi kimi hərbi hissədə şəxsi heyət arasında hərbi intizamın möhkəmləndirilməsi, qanun pozuntularının qarşısının alınması, daxili xidmət qaydalarına riayət olunması və tərbiyə işinin təşkilinə cavabdehlik daşıyan kapitan Ə.Əliyev üzərinə düşən vəzifələri layiqincə icra edir.

Qeyd edim ki, kapitan Ə.Əliyev funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşdığına, xidməti vəzifə borclarını layiqincə yerinə yetirməsinə, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdirdiyinə görə "Xidmətdə fərqləndiyinə görə" döş nişanı ilə təltif olunub. Hərbi qulluqçumuza bundan sonrakı xidmətində uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

# TİBB PERSONALI VƏZİFƏLƏRİNİ VİCDANLA YERİNƏ YETİRİR

25033 saylı hərbi hissənin tibb xidməti vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları uğurla icra edir. Tibb xidməti rəisi tibb xidməti mayoru Sədəddin Bəkirov şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, sanitariya-gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.

2021-ci ilin may ayından bu vəzifəni icra edən tibb xidməti mayoru S.Bəkirov bildirdi ki, gündəlik olaraq xidmət öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Tibb məntəqəsində dezinfektorlar baş çavuş Rəşad Sultanov və baş çavuş Hakim Muradlı qoyulan tapşırıqları keyfiyyətlə icra edirlər: "Əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargahın binasında, yataqxanada dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir. Zərurət yarandıqda bu işlər gündəlik olaraq həyata keçirilir".



Tibb xidmətinin şəxsi heyəti tərəfindən ambulator xəstələrin qəbulu, onlara yardımın göstərilməsi, təyinatların icrasına nəzarət, həmçinin, xəstələrin tibb kitabçalarında qeydiyyatların aparılması həyata keçirilir. Bundan əlavə, xəsarət alanlara, təxirəsalınmaz həkim nəzarəti altında xəstələrə yardım göstərilir, əczaxanadan alınan dərmanların saxlanılmasına, tibbi avadanlığın düzgün istifadəsinə və sterilizasiyasına xüsusi diqqət yetirilir.

Qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, sağlamlığında problem aşkarlanan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsində stasionar müalicəyə qəbul olunur. Bölmələr tibbi preparatlarla fasiləsiz olaraq təmin edilir. Xidmət rəisi onu da əlavə etdi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət qənaətbəxşdir.

Həyata keçirilən profilaktik tədbirlər nəticəsində şəxsi heyətin sağlamlığı etibarlı şəkildə qorunur.

**kapitan Xədicə Hacızadə**

# MƏSULİYYƏT VƏ ƏZMKARLIQ VACİB MEYARLARDIR



Baş çavuş Araz Qurbanov 25033 saylı hərbi hissənin nümunəvi xidmət edən hərbi qulluqçularındandır. O, 1991-ci il oktyabrın 12-də Lənkəran rayonunun Girdəni kəndində anadan olub. Orta təhsillidir. 2009-cu ildə Girdəni kənd orta məktəbini bitirdikdən sonra 2011-ci ilin aprel ayına kimi Daxili Qoşunların 16073 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2012-ci ildən etibarən 25033 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirir. Öncə silah xidmətində kargüzar vəzifəsinə təyin olunub, 2014-cü ilin mart ayından isə silah anbarının rəisidir.

Silah xidmətinin rəisi mayor Ramin Əliyev tərəfindən nümunəvi, xidməti vəzifələrinin öhdəsindən bacarıqla gələn, nizam-intizamlı hərbi qulluqçu kimi xarakterizə olunur. Layiqli xidmətinə görə dəfələrlə hərbi hissə və Daxili Qoşunların komandanlığı tərəfindən mükafatlandırılıb. 2020-ci ildə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalla təltif edilib.

Baş çavuş A.Qurbanov anbar rəisi kimi maddi vəsaitlərin anbardan təhvil alınıb-verilməsinə, onların düzgün saxlanılmasına, uçotunun vaxtlı-vaxtında, dəqiqliklə aparılmasına və anbarda daxili qaydalara riayət olunmasına cavabdehlik daşıyır. O bildirdi ki, anbardakı maddi vəsaitlər yalnız təyin olunmuş müvafiq sənədlər əsasında anbardan buraxılır və yalnız anbara qəbul edilir. Bununla yanaşı, anbardakı maddi vəsaitlərin yanğından qorunması məqsədilə müvafiq tədbirlər həyata keçirilir və təhlükəsizlik qaydalarına ciddi riayət olunur.

Daxili Qoşunların sıralarında xidmətilə qürur duyduğunu söyləyən hərbi qulluqçumuz bundan sonra da ona həvalə olunan tapşırıqları keyfiyyətlə yerinə yetirəcəyinə, ona göstərilən etimadı doğruldacağına söz verdi.

**25033 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# ŞƏXSİ HEYƏTİN QİDALANMASINDA MİLLİ TƏAMLARA ÜSTÜNLÜK VERİLİR



Daxili Qoşunlar komandanlığının diqqət yetirdiyi əsas sahələrdən biri şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması bir çox amillərlə, o cümlədən, sağlam və keyfiyyətli qidalanma ilə bağlıdır.

16076 saylı hərbi hissənin ərzaq xidmətinin rəisi kapitan Toğrul Qurbanov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, Daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Bildirdi ki, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Onun sözlərinə görə, xörəklərin yüksək keyfiyyətlə hazırlanması, eləcə də sanitar-gigiyenik qaydalara riayət edilməsi üçün lazımi tədbirlər görülür.

Xidmət rəisi şəxsi heyətin gündəlik qida rasionu barədə məlumat verərkən hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verildiyini vurğuladı: "Əlavə olaraq, mövsümi salatlar və meyvə şirələri qida rasionuna daxildir. Xüsusilə, qış mövsümündə kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə şəxsi heyətin qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur. Şəxsi heyətin qidalanması həftəlik bölgü cədvəlinə əsasən təşkil edilir. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır".

Kapitan T.Qurbanov görülən işlərdə aşpaz-manqa komandiri çavuş Ramil Alxasovun, aşpaz gizir Şölə Hüseynovanın və mülki işçi-aşpaz Kəmalə Novruzovanın fəaliyyətini xüsusilə vurğuladı. Onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini, qidaları tələb olunan keyfiyyətdə hazırladıqlarını, gigiyena qaydalarına ciddi əməl etdiklərini diqqətə çatdırdı.

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### ABŞ Çexiyaya hücum helikopterləri bağışlayacaq

ABŞ EDA (Excess Defence Articles) proqramı çərçivəsində Çexiyaya "Bell Textron" şirkətinin istehsalı olan 8 ədəd hücum helikopteri bağışlayacaq. "Poliqon" xəbər verir ki, bu barədə ABŞ-ın Çexiyadakı səfirliyinin rəsmi "Twitter" hesabında bildirilib. Məlumatda qeyd edilib ki, bunlardan altı ədədi AH-1Z və ikisi UH-1Y helikopterləridir.



AH-1Z "Viper" AH-1 "Super Cobra" helikopterinin bazasında hazırlanıb və 2010-cu ildən, UH-1Y "Venom" helikopteri isə 2008-ci ildən ABŞ Dəniz Piyadaları Korpusunun silahlanmasındadır.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik-leytenant Anar Qurbanova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan baş çavuş Murad Hüsünlünün** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.


TƏSİSÇİ: Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.

Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI: AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.

Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565

Sayı 3000